# Cənub ədəbiyyatı
## İlham Qəhrəmanlının təqdimatında



Məhəmməd Rza Ləvayi

*Ləvayi Məhəmməd Rza çağdaş Güney şeirinin ən parlaq imzalarından biri kimi tanınır. Modern üslubda şeirlər yazan şair uzun illər Təbriz universitetində türk ədəbiyyatından dərs deyib. Əslən Qaradağ mahalının Xoca şəhərindəndir. 1970-ci ildə dünyaya gələn şair bir müddət Bakıda yaşayıb və "Alma" qəzetində çalışıb. Sonradan ABŞ-ın Çikaqo şəhərinə mühacirət edib. Şairin işıq üzü görən kitabları: "Gəlirəm mənə inan", "Sonra ürəyimi onlara verdim", "Dərinliyimdir dəniz", "Günəş səsindir batır", "Terror və azadlıq", "Gözlərin doğum günüm", "Arbatan", " Sus"...*

### ANAMIM MƏZARI MAYAMİDƏ

Gecə saat üçdə
bütün şəhərləri toplayıb Mayamiyə tökürəm
İndi qürbətin bir ucu Florida, bir ucu Qaradağ
Qatla gəlsin sən o yandan mən bu yandan
Xəritələri lülələyib bir kafedə masanın üstünə atırıq
Sonra qonuşmağa işarətlər arayırsan, -
Məmmədrzam, bax, gecənin göyü bədənindir səpib...

Sonra dodağının xalından sıçrayıb ovcuma düşür Tanrı
Həmişə atamdan gizli ovcuma bir şeylər qoyardın
Həmişə bu döyüş canlıdır
Mən Floridanı bıçaq soxuram sulara
Bu döyüş soyuq və sıcaq
Orda Savalan kəfən çürüdür
Bu döyüş canlıdır avara edib bizi
Ən azından sənin bir məzarın var saxlanmağa
Mən isə həmişəki kimi saxlanacaq bir yer arayıram
Nədən məzarını tullamırsan mənə bu gecəlik?
İndi məzarın Məmmədrzanın beşiyi...

Anlayıram
Dünyanın o başından bu başına sürünmək
qamburgerə yaxılan mayonezdir
Mənim allergiyam var
Sən buyur
Nuş olsun!

### SOYQIRIM

İndi gözlərin
ölmək üçün aradığım o özəl gün
Yumarsan gözlərini
Mənimlə Çikaqonu birlikdə gömərsən Təbrizdə,
Sevgilim.

Sürgün edilmək üşütməkdir
Hər gün gördüyüm hər bina
canıma soxulan iynədir
Hər gün xəstə düşürəm
gözlərinin Azərbaycanına
Heç zaman dodaqlarını
bu qədər vətənim hiss etməmişdim ki
Yenə Qurd Meydanındakı evindəsən əgər,
qapını aç,
Toplamışam küçəyə süründüyüm bütün şəhərləri
Gəl aşağı,
Bir Ləvayi soyqırımı törət və geri dön!

### TİRAXTUR UDUB DEDİLƏR

Tiraxtur udub dedilər
Öncə qızıl bayraqlar
ürəyimin sağ tərəfindən keçdi
Sonra qırmızı gəlib solumu yıxdı
Saat Meydanı düşdü
Baton Rougenin başına
Xocada bir fərş toxuyan qızın
yanaqları calandı fərşə
Dostumun iztirabı, ya da bir qırmızı balıq
qapıma ləzgi çarpıb yallı keçdi
Hans Christian Andersenin
kibrit satan qızı günəşə çarpdı əlini
Tehran stadionlarında...

Tiraxtur udub dedilər
Burla Xatının incə beli uzanıb
yol çəkdi Təbrizlə mənim arama
Yol gəlib götürdü məni başqa bir kəhkəşana
"Yaşasın Azərbaycan!" oynayırdı orada...
Tiraxtur udub dedilər...

### SƏS

Bir səhər asacaqlar səsimi
Mahnılar qan olacaq
Sonra yoldan keçən biri
səsimi dardan alıb aparacaq evə,
Sonra səsimi bağçada əkəcək
Sonralar bütün ağaclardan
məni dinləyəcəksən, gözəlim.

* * *

Sen sevgililər gününü gözlədin
Mən günlərin sevgisini...
Gör nə günə qalıb sevgi!

* * *

Məndən gizlədiyin üz
Yalnızlığımı deşən aydır!

### AYAQLARIMI KƏSDİLƏR VƏTƏNDƏN

Qatarın səsində səni sevirəm var,
oturub qucağımda.

Qatarın səsində yavaş-yavaş
Şərqdən Qərbə sızır gözlərinin Azərbaycanı
Alıb boşaldıram gözlərindən
hüznün iyirmi bir əsrini
Doldururam gözlərinə sevginin
Bakısını, Təbrizini, İstanbulunu.

Qatarın səsində köynəyinin qırmızısı
qanım qaynayır sənə!
Qatarın səsində
Xəzəri qoyur çiynimə mavi örtüyün
Vətənimin ətri dəli edir yenə bir yazıq Ləvayini.

Düşünmədilər hə, düşünmədilər
Ayaqlarımı kəsdilər vətəndən
Halbuki mən
ürəkdən
bağlıyam
ona!